MUHAMMƏD
BİN SALEH ƏL-USEYMİN

# HİCAB RİSALƏSİ

NİCAT HƏŞİMOV

# HİCAB RİSALƏSİ

Müəllif:

**Muhamməd bin Saleh əl-Useymin**

**Tərcümə edən:**

Nicat Həşimov

**Redaktə edən:**

Xumar Ərşadlı

**İxtisas redaktoru:**

Famil Muradov

KİTABIN BÜTÜN HÜQUQLARI QORUNUR

# ÖN SÖZ

إنّ الحَمدَ للهِ نَحمَدُهُ، وَنَستَعِينُهُ، وَنَستَغفِرُهُ، وَنَعُوذُ بِاللهِ مِن شُرُورِ أَنفُسِنَا وَمِن سَيِّئَاتِ أَعمَالِنَا... مَن يَهدِهُ اللهُ فَلاَ مُضِلَّ لَهُ، وَمَن يُضلِل فَلاَ هَادِيَ لَهُ، وَأَشهَدُ أَن لاَ إِلَهَ إِلاَّ الله وَحدَهُ لاَ شَرِيكَ لَهُ، وَأَشهَدُ أَنّ مُحَمَّداً عَبدُهُ وَرَسولُهُ صَلَّى اللهُ عَلَيْهِ وَعَلَى آلِهِ وَأَصْحَابِهِ، وَمَنْ تَبِعَهُمْ بِإِحْسَانٍ وَسَلَّمَ تَسْلِيماً.

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edir, yalnız Onu köməyə çağırır, Ondan bağışlanma diləyir və ona tövbə edirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün də yalnız Ona sığınırıq. Allah kimə hidayət verərsə, o kəs doğru yolda olar, kimi də azdırarsa, o kimsəni doğru yola yönəldən tapılmaz.

Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd (ona Allahın salavatı va salamı olsun) Onun qulu və Elçisidir.

Sonra isə: Uca Allah Muhammədi (ona Allahın salavatı va salamı olsun) Rəbbinin izni ilə insanları zülmətlərdən nura və Həmid və Əziz olan Allahın doğru yoluna yönəltmək üçün hidayətlə və haqq olan dinlə göndərib. Onu tək olan Allaha ibadəti icra etmək üçün yollayın. Bu isə, Onun qadağalarından çəkinib, əmrlərinə tabe olub bunları nəfsinin istəklərindən və şəhvətlərindən üstün tutmaq, Onun qarşısında bütünlüklə zəlil olmaq və boyun əyməkdir. Allah Onu gözəl əxlaqı tamamlamaq və hər bir vəsilə ilə ona dəvət etmək, pis əxlaqı aradan qaldırmaq və hər bir vəsilə ilə ondan çəkindirmək üçün göndərib. Onun şəriəti kamil və bütün sahələri əhatə edən bir şəriət olaraq gəlib və bu şəriətin kamil və nizamlı olmasında heç bir bəşərə ehtiyac yoxdur. Həqiqətən bu şəriət hikmət sahibi, hər şeydən xəbərdar olan, hər şeyi bilən və qullarına Rəhmli olan Allah tərəfindən qullarının xeyri üçün  nazil edilib.

Allahın imandan və onun şöbələrindən bir şöbə etdiyi həya da Muhammədlə (ona Allahın salavatı və salamı olsun) göndərilən

möhtərəm və gözəl əxlaqa daxildir. Heç kim şəriət və adət-ənənələr çərçivəsində qadına əmr olunan əxlaqın, onu təvazökarlıq pərdəsinə bürüyərək fitnə və şübhə dolu yerlərdən uzaq tutduğunu inkar edə bilməz.

Şəkk yoxdur ki, qadının hicab geyinməsi, üzünü və fitnəyə səbəb olacaq digər bədən üzvlərini örtməsi onun etdiyi ən böyük təvazökarlıq və özünü qoruyaraq fitnədən uzaq tutması üçün bəzəndiyi ən gözəl zinətidir.

İnsanlar vəhyin endiyi, peyğəmbərliyin verildiyi bu həya və təvazökarlıq ölkəsində bu mövzuda ilk əvvəldən doğru yol üzərində idilər: qadınlar evdən bayıra çıxarkən hicablanaraq, çarşablanaraq çıxar, yad kişilərdən uzaq durar, onlara qarışmazdılar. Allaha həmd olsun ki, məmləkətimizin bir çox şəhərlərində bu hal hələ də davam etməkdədir.

Lakin, hicab barədə hasil olan bəzi boş danışıqlar, insanların özlərinin etmədikləri şeyləri (Şeyx burada Qərb əhlinin əməllərini qəsd edir) görmələri və qadının üzünün açılmasında bir qəbahət olmadığını demələri səbəbi ilə bəzi kəslərdə hicab və qadının üzünü örtməsi barədə şəkk-şübhə yarandı. Hicab vacibdir yoxsa müstəhəb, yaxud insanların adət-ənənəyə müvafiq olaraq ardınca getdikləri bir şeydir? Hicaba öz-özlüyündə vacib və ya müstəhəb hökmü verilirmi? Bu şəkki aradan qaldırmaq, həqiqəti aşkar etmək və bununla haqqı bəyan etmək məqsədilə, Allahdan bizləri haqqı gördükdə ona tabe olan və batili gördükdə ondan çəkinən, doğru yol üzərində olub bu yola çağıranlardan etməsini ümid edərək hicabın hökmünü bəyan etmək üçün bu kitabı qələmə alır və “müvəffəqiyyət Allahdandır” deyirəm.

Bil ki, ey Müsəlman! Qadının yad kişilərin yanında hicab geyinməsi və üzünü örtməsi vacib olan bir işdir. Bunun vacib olmasını bizə Rəbbinin kitabı, Muhamməd Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) Sünnəsi, sağlam düşüncə və davam olan qiyas göstərir.

# Birinci:
# QURANİ-KƏRİMDƏN SÜBUTLAR

## QURANİ-KƏRİMDƏN AYƏLƏR.

**<u>Birinci sübut:</u>** Uca Allah belə buyurur:

﴿ وَقُل لِّلْمُؤْمِنَٰتِ يَغْضُضْنَ مِنْ أَبْصَٰرِهِنَّ وَيَحْفَظْنَ فُرُوجَهُنَّ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ
مِنْهَا ۖ وَلْيَضْرِبْنَ بِخُمُرِهِنَّ عَلَىٰ جُيُوبِهِنَّ ۖ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ أَوْ ءَابَآئِهِنَّ أَوْ ءَابَآءِ بُعُولَتِهِنَّ أَوْ
أَبْنَآئِهِنَّ أَوْ أَبْنَآءِ بُعُولَتِهِنَّ أَوْ إِخْوَٰنِهِنَّ أَوْ بَنِىٓ إِخْوَٰنِهِنَّ أَوْ بَنِىٓ أَخَوَٰتِهِنَّ أَوْ نِسَآئِهِنَّ أَوْ مَا مَلَكَتْ
أَيْمَٰنُهُنَّ أَوِ ٱلتَّٰبِعِينَ غَيْرِ أُو۟لِى ٱلْإِرْبَةِ مِنَ ٱلرِّجَالِ أَوِ ٱلطِّفْلِ ٱلَّذِينَ لَمْ يَظْهَرُوا۟ عَلَىٰ عَوْرَٰتِ ٱلنِّسَآءِ ۖ وَلَا
يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ ۚ وَتُوبُوٓا۟ إِلَى ٱللَّهِ جَمِيعًا أَيُّهَ ٱلْمُؤْمِنُونَ لَعَلَّكُمْ
تُفْلِحُونَ ﴾

*“Mömin qadınlara da de ki, gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini qorusunlar. Qoy onlar görünənlər istisna olmaqla, zinətlərini göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirmiş kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını anlamayan uşaqlardan başqasına göstərməsinlər; gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vuraraq yeriməsinlər. Ey iman edənlər! Hamınız Allaha tövbə edin ki, bəlkə nicat tapasınız”*[1].

Bu ayədə qadının yad kişilərin yanında hicab geyinməsinin vacib olması bir neçə cəhətdən açıqlanır:

---

1 “ən-Nur”, 31.

**1-** Həqiqətən Allah bu ayədə mömin qadınlara cinsiyyət üzvlərini qorumalarını əmr edib; cinsiyyət üzvünün qorunması əmri, ona vəsilə olanın əmr olunması deməkdir. Ağıl sahibi olan heç kimsə şübhə etməz ki, bunun vəsilələrindən biridə üzü örtməkdir. Çünki üzün açıq olması ona baxmaq, onun gözəlliyi barədə düşünmək və bundan ləzzət almaq üçün səbəbdir, daha sonra isə ona çatmaq istəyi gəlir. Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə buyurur: *"Gözlər zina edir, onların zina etməsi baxmaqdır... cinsiyyət üzvü ya bunu doğrulayar yada yalanlayar"*[1]. Əgər üzün örtülü olması cinsiyyət üzvünün qorunması üçün bir vəsilədirsə, o zaman qadınlara həm də üzlərini örtmək əmr olunub. Çünki vəsilələrin hökmləri məqsədlərdir.

**2-** Uca Allah belə buyurub:

﴿ وَلۡيَضۡرِبۡنَ بِخُمُرِهِنَّ عَلَىٰ جُيُوبِهِنَّۖ ﴾

*"Örtüklərini yaxalarının üstünə atsınlar".*

Örtük - qadını başından aşağı örtən geyimə deyilir - eynilə gecənin zülməti hər şeyi örtdüyü kimi. Əgər qadına öz örtüyünü sinəsinə atmaq əmr olunubsa, deməli ona həm də üzünü örtmək əmr olunub. Ya belə tələb olunduğu üçün, yaxud da qiyasla. Əgər qadına sinəsinin örtülməsi əmr olunubsa, üzün örtülməsi bundan daha öncədir, çünki üz gözəllik və fitnə yeridir. Qadının gözəlliyini axtaran kəslər onun yalnız üzü barədə soruşurlar. Üzü gözəl olarsa, digər yerlərinə nəzər yetirməz və əhəmiyyət verməzlər. Buna görə də, "filankəs gözəl qadındır" deyildikdə, bu sözdən başa düşülən yalnız üz gözəlliyidir. Beləliklə, bizə aydın olur ki, üz həm axtaran, həm də xəbər verən kimsəyə görə gözəllik yeridir. Məsələ belə olduğu halda, necə başa düşülə bilər ki, şəriət qadına sinəsini örtməsini əmr etdikdən sonra üzünü açmasına rüxsət verib?!

1 "Müsnəd Əhməd" 8539-8843-cü hədislər. Həhdis səhihdir.

**3-** Şübhəsiz ki, Allah, libas olaraq görünənlər istisna olmaqla zinətini aşkar etməyi qadına qadağan edib. Buna görə Uca Allah belə buyurmuşdur:

﴿ إِلَّا مَا ظَهَرَ مِنْهَا ﴾

*“görünənlər istisna olmaqla”* - Allah bu ayədə “onların izhar etdikləri” demədi, istisna olanları bəlli etdikdən sonra, təkrar olaraq zinətlərini aşkar etməyi qadağan etdi. Buradan bizə bəlli olan birinci zinət, ikinci zinət deyil. Birinci zinət aşkar olan zinətdir - bu zinət hər kəsdə aşkardır və onu gizlətmək mümkün deyil. İkinci zinət isə, aşkarda olmayıb batində olan zinətdir. Bu zinəti aşkar etmək icazəli olsa idi, birinci zinətin ümumən qadağan edilib, ikinci dəfə zikr edildikdə isə istisna edilməsinin heç bir faydası olmazdı.

**4-** Həqiqətən Allah ehtiras hissini itirmiş kişi xidmətçilərə, yaxud qadınların çılpaqlığını anlamayan uşaqlara rüxsət vermişdir. Bütün bunlar isə bu iki şeyə dəlalət edir:
**Birinci:** Gizlində olan zinətləri bu iki qrup kəslərdən başqa yad olan heç kəsə aşkar etmək icazəli deyil.

**İkinci:** Hökmün səbəbi qadın fitnəsi və ona bağlılığa əsaslanır. Şəkk yoxdur ki, həqiqətən üz, gözəlliyin və fitnənin cəm olunduğu yerdir. Odur ki, ehtiras hissini itirməmiş kişiləri fitnəya salmamaq üçün üzü örtmək də vacib olur.

**5-** Uca Allah belə buyurmuşdur:

﴿ وَلَا يَضْرِبْنَ بِأَرْجُلِهِنَّ لِيُعْلَمَ مَا يُخْفِينَ مِن زِينَتِهِنَّ ﴾

*“gizlətdikləri zinət əşyaları bilinsin deyə ayaqlarını yerə vuraraq yerimısinlər”*- yəni qadın gizlətdiyi xalxalı (ayaq bilərziyi) və kişi üçün bəzəndiyi digər zinət əşyalarını aşkar etsin deyə ayaqlarını yerə vuraraq yeriməməlidir. Əgər kişinin xalxalın səsini eşidərək fitnəyə düşməməsi

üçün qadının ayağını yerə vuraraq yeriməsi qadağandırsa, onda üzün açılması necə? Hansı daha böyük fitnədir? Kişinin kimliyini, cavan yaxud yaşlı, çirkin yoxsa gözəl olduğunu bilmədiyi, tanımadığı qadının ayağındakı bilərziyin səsini eşitməsi, yoxsa üzünü açmış, gənc, parlaq, gözəlliklərlə dolu, fitnəni və nəzərləri özünə cəlb edən gözəl qadına baxması? Bütün kişilərdə qadına qarşı ehtiras hissi var. Odur ki, qadın hansı fitnənin daha böyük olduğunu və necə örtünməyin daha doğru olduğunu bilməlidir.

**<u>İkinci sübut:</u>** Uca Allah Qurani-Kərimdə belə buyurur:

﴿ وَٱلۡقَوَٰعِدُ مِنَ ٱلنِّسَآءِ ٱلَّٰتِي لَا يَرۡجُونَ نِكَاحٗا فَلَيۡسَ عَلَيۡهِنَّ جُنَاحٌ أَن يَضَعۡنَ ثِيَابَهُنَّ غَيۡرَ مُتَبَرِّجَٰتِۭ بِزِينَةٖۖ وَأَن يَسۡتَعۡفِفۡنَ خَيۡرٞ لَّهُنَّۗ وَٱللَّهُ سَمِيعٌ عَلِيمٞ ﴾

*“Ərə getməkdən ümidini üzmüş yaşlı qadınlara ayıb yerlərini göstərmədən hicablarını soyunmasında günah yoxdur. Lakin bunu etməmək onlar üçün daha xeyirlidir. Allah Eşidəndir, Biləndir”*[1].

Kişilərin ərə getməkdən ümidini üzmüş yaşlı qadınlara rəğbəti olmadığı üçün Allahın bu ayədə onlara hicablarını soyunmasını günah etməməsi də buna bir sübutdur. Ayıb yerlərini göstərməmək şərtilə hicablarını açmaqlarına görə Allah bu qadınların üzərindən günahı qaldırmışdır. Sağlam düşüncəyə müvafiq olaraq hər kəsə məlumdur ki, “hicablarını soyunmaq” dedikdə onların öz bədənlərini açmaları qəsd olunmur. “Hicablarını soyunmaq” dedikdə boyundan yuxarı və əksər hallarda gizlədilməyən zinətlər - üz və əllər qəsd olunur. Bu yaşlı qadınlara soyunması rüxsət edilən hicab, bütün bədəni örtən paltardır. Hökmün məhz yaşlı qadınlara xas olması, ərə getməkdən ümidini üzməmiş qadınların hökmünün fərqli olduğunu göstərir. Hicabı soyunmağın

1 “ən-Nur”, 60.

icazəli olması hökmü bütün qadınlara şamil olunsaydı, ərə getməkdən ümidini üzmüş qadınların xüsusiləşdirilməsində heç bir fayda olmazdı. Uca Allah buyurur:

﴿ غَيْرَ مُتَبَرِّجَٰتِۭ بِزِينَةٍۖ ﴾

Bu ayədə *"ayıb yerlərini göstərmədən"* deyilməsi, hicabın evlənmək ümidi olan cavan qızlara vacib olmasının başqa bir sübutdur. Çünki əksər hallarda üzünü açan qadın bunu zinətini aşkara vurmaq və gözəlliyini izhar etmək, kişilərin ona baxaraq gözəlliyini təriflməsi və digər məqsədlərlə edir. Digər səbəblərlə üzünü açan qadınların sayı çox nadirdir və nadir olan şeylərə isə hökm verilmir.

**<u>Üçüncü sübut:</u>** Uca Allah belə buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ قُل لِّأَزْوَٰجِكَ وَبَنَاتِكَ وَنِسَآءِ ٱلْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَٰبِيبِهِنَّۚ ذَٰلِكَ أَدْنَىٰٓ أَن يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَۗ وَكَانَ ٱللَّهُ غَفُورًا رَّحِيمًا ﴾

*"Ey Peyğəmbər, zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, çarşabları ilə örtünsünlər. Bu onların tanınmaması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhmlidir"*[1].

İbn Abbas (Allah ondan və atasından razı olsun) belə demişdir: *"Allah möminlərin qadınlarına hər hansısa bir ehtiyac üçün evdən çölə çıxdıqda üzlərini örtməklə başlarından çarşablarını atmalarını və sadəcə bir gözlərini açıq tutmağı əmr etdi"*. Səhabənin açıqlaması hüccətdir. Hətta bəzi alimlər səhabələrin hədislərə verdikləri şərhlərin Peyğəmbərə (ona Allahın salavatı və salamı olsun) nisbət edilən hədis hökmündə olduğunu

1 "əl-Əhzəb", 59

demişlər. İbn Abbas ***“Sadəcə bir gözünü açsın”*** demiş və bunu qadının getdiyi yola baxmasının zərurət və ehtiyac olduğu üçün rüxsət etmişdir. Ehtiyac olmadıqda isə gözün belə açılmasını vacib edən başqa bir dəlil yoxdur.

Çarşab - əba əvəzi olub ximarın üzərindən atılan rida, yəni üst geyimdir. Ummu Sələmə (Allah ondan razı olsun) belə deyir: *“Bu ayə nazil olduqda Ənsarlardan olan Səhabələrin qadınları sükunətdən sanki başlarında qarğa varmış kimi və üzərlərinə qara örtüyə bürünmüş libas geyinərək çıxdılar”*[1]. Əbu Ubeydə əs-Səlməni və digərləri belə deyirlər: *“Möminlərin qadınları yolu görmək üçün yalnız gözlərini açmaları istisna olmaqla başlarının üzərindən çarşablarını atmışdılar”.*

**<u>Dördüncü sübut:</u>** Uca Allah belə buyurur:

﴿ لَّا جُنَاحَ عَلَيْهِنَّ فِىٓ ءَابَآئِهِنَّ وَلَآ أَبْنَآئِهِنَّ وَلَآ إِخْوَٰنِهِنَّ وَلَآ أَبْنَآءِ إِخْوَٰنِهِنَّ وَلَآ أَبْنَآءِ أَخَوَٰتِهِنَّ وَلَا نِسَآئِهِنَّ
وَلَا مَا مَلَكَتْ أَيْمَٰنُهُنَّ ۗ وَٱتَّقِينَ ٱللَّهَ ۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَىْءٍ شَهِيدًا ﴾

*“Qadınlara ataları, oğulları, qardaşları, qardaşlarının oğulları, bacılarının oğulları, öz qadınları, sahib olduqları kölə və cariyələri yanında hicablarını soyunmalarında heç bir günah yoxdur. Ey qadınlar, Allahdan qorxun! Şübhəsiz ki, Allah hər şeyə şahiddir”*[2]. İbn Kəsir (Allah ona rəhmət etsin) belə söyləyir: *“Allah qadınlara yad kişilərin yanında hicab geyinməyi əmr etdikdə, daha sonra bu ayə onların öz qohumların yanında hicab geyinmələrinin vacib olmadığını bəyan etdi. Necə ki, O bunu “ən-Nur” surəsində istisna etmişdir:*

1 “Sünən əbu Dəvud” 4101-ci hədis. Hədis səhihdir. Bax:“Səhih Sünən əbu Dəvud”, -ci 4101 hədis.
2 “əl-Əhzab”, 55.

﴿ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا لِبُعُولَتِهِنَّ ﴾

*"Qoy onlar görünənlər istisna olmaqla zinətlərini göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən başqasına göstərməsinlər"*[1].

Qurani-Kərimdən olan bu dörd sübut qadının yad kişilərin yanında hicab geyinməsinin vacib olmasına dəlalət edir. Birinci ayə beş müxtəlif yöndən bu sübutları əhatə edir.

1 "ən-Nur", 31.

# İkinci:

# SÜNNƏDƏN SÜBUTLAR

## PEYĞƏMBƏRİN SÜNNƏSİNDƏN HƏDİSLƏR.

**Birinci sübut:** Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) belə deyir: *"Sizdən birisi bir qadınla nigahlanmaq istədikdə, o qadın bunu bilmədən belə ona baxmasında ona heç bir günah yoxdur"*[1]. Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) sözündəki sübut odur ki, o, nigahlanmaq istəyən kimsənin evlənmək şərti ilə qadına baxmasında günah olmadığını söyləyib. Buradan bəlli olur ki, nigahlanmaq istəməyən kimsənin yad qadına baxması hər bir halda günahdır. Eləcə də evlənmək istəyən kişi yad qadına evlilikdən başqa bir niyyətlə baxarsa, bu onun üçün günahdır. Məsələn: qadına baxmaqda məqsədi zövq almaq və ya digər şeylər olarsa.

Əgər deyilsə ki, hədisdə qadına baxmağın qadağan olması açıq-aşkar deyil, ola bilsin "baxmaq" deyildikdə qəsd olunan sinəyə və boğaza baxmaqdır.

Cavabımız budur ki, həqiqətən "evlənmək istəyən kimsənin qadına baxması" deyildikdə əksər hallarda qəsd olunan başqa bir şey yox, yalnız və yalnız qadının üz gözəlliyidir. Heç bir şəkk yoxdur ki, evlənmək istəyən kişi qadının üzünə baxmaq istəyir, çünki gözəllik axtaran kimsənin hədəfi məhz qadının üzüdür.

1 "Müsnəd Əhməd" 23602-23603-cü və "Sünən əbu Dəvud" 2082-ci hədislər. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə", 97-ci hədis.

**İkinci sübut:** Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) qadınlara bayram namazını qılmaq üçün namazgaha çıxmağı əmr etdikdə onlar belə dedilər: "Ey Allahın Elçisi! Bizdən çarşabı olmayan kimsələr var".

O, (ona Allahın salavatı və salamı olsun) *"bacısı ona çarşabından geyindirsin"* - dedi[1]. Bu hədis Səhabə qadınların adətinin evdən bayıra çarşabsız çıxmamaları olduğunu və onlardan birinin çarşabı olmadıqda bayıra çıxmadığını göstərir. Məhz buna görə Peyğəmbər onlara bayram namazını qılmaq üçün namazgaha çıxmaqı əmr etdikdə onlar özlərinə mane olan şeyi Peyğəmbərə xəbər verdilər. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) onlara bir-birilərinə öz çarşablarını verməyi məsələnin həlli yolu olaraq göstərdi. Beləliklə, bayram namazı üçün namazgaha getmək həm kişilərə, həm də qadınlara əmr olunsa da, o, qadınlara çarşabsız evdən çıxmağa izn vermədi. Əgər Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) onlara əmr olunan bir ibadəti icra etmək üçün evdən çarşabsız çıxmağa izn vermədisə, bazarları dolanmaq, kişilərlə qaynayıb-qarışmaq və heç bir fayda olmadan üzü açmaq kimi ehtiyac olmayan və əmr olunmayan əməllər üçün qadının çarşabsız bayıra çıxması necə rüxsət ola bilər?! Çarşab geyinməyin əmr olunması, qadının örtünməsinin labüd olmasına sübutdur. Allah daha yaxşı bilir.

**Üçüncü sübut:** Buxari və Müslim "Səhih" hədis toplularında Aişənin (Allah ondan və atasından razı olsun) belə dediyi rəvayət olunur: *"Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) sübh namazını qılardı, mömin qadınlar da pambıqdan olan çarşablarını başlarına ataraq Onunla birlikdə namaza çıxardılar. Namazdan sonra evlərinə qayıdarkən, qaranlıqdan onları (qadınları) heç kəs tanımazdı"*[2]. Əgər biz qadınlarda gördüyümüzü Allahın Elçisi görsə idi, İsrail oğulları qadınlara

1 "Səhih əl-Buxari" 351-ci və "Səhih Müslim" 895-ci hədislər.
2 "Səhih əl-Buxari" 372-ci və "Səhih Müslim" 645-ci hədislər.

mane olduğu kimi o da (ona Allahın salavatı və salamı olsun) qadınları məsciddən qadağan edərdi”. Buna bənzər hədisi Abdullah ibn Məsud da (Allah ondan razı olsun) rəvayət edib. Bu hədisin mətnində qadının çarşab geyməli olmasını sübut edən dəlillər:

**Birinci:** Həqiqətən hicablanmaq və örtünmək ən xeyirli və Allah qatında ən hörmətli, əxlaqı və ədəbi ən uca, imanları isə ən kamil olan ibrətli bir nəslin - Səhabə qadınların adətindən idi. Allah onlardan və yaxşı əməllərdə onların arxasınca gedənlərdən razı olsun. Necə ki, Uca Allah buyurur:

﴿ وَالسَّابِقُونَ الْأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالْأَنصَارِ وَالَّذِينَ اتَّبَعُوهُم بِإِحْسَانٍ رَّضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا
عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ ﴾

*“Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı iş görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Onlar üçün ağacları altından çaylar axan, içərisi əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur”*[1].

Əgər Səhabə qadınların yolu bu idisə, biz isə yaxşı işlər görməkdə onların ardınca gedən kimsələriksə, Allahın razılığını qazandıran bu yoldan üz çevirmək bizə yaraşmaz. Uca Allah belə buyurur:

﴿ وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَىٰ وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّىٰ
وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءَتْ مَصِيرًا ١١٥ ﴾

*“Hər kəs özünə doğru yol bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxar və möminlərin yolundan başqa bir yolla gedərsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmə salarıq. Ora nə pis dönüş yeridir”*[2].

1 “ət-Tövbə”, 100.
2 “ən-Nisa”, 115.

**İkinci:** Həqiqətən Allahın dinində öz elmləri, fiqhləri və bəsirətləri ilə başqalarından fərqlənən möminlərin anası Aişə ilə Abdullah bin Məsud (Allah hər ikisindən razı olsun) sənə və Allahın qulları üçün nəsihətçi olaraq kifayət edər. Onların hər ikisi demişdir: *"Əgər Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) qadınlarda onların gördüklərini görsə idi, onları məscidlərə getmələrini qadağan edərdi"*. Bu, dəyərli bir nəslin zamanında belə idi. Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) vaxtından bu günə qədər zaman o dərəcədə dəyişib ki, hətta bu dəyişiklik elə bir həddə çatıb ki, qadınların məscidlərə getmələrini qadağan edir. Bəs on dörd əsr sonra, bu müasir dövrdə necə?! Bu gün artıq hər şey rahatlaşıb, həya azalıb və qadınların əksəriyyətinin qəlbində din zəifləyib. Aişə və İbn Məsud (Allah hər ikisindən razı olsun) bu kamil şəriətin naslarının (yəni Quran ayələri və hədislər – tərc. qeyd) dəlalət etdiyi şeyi başa düşür və bilirdilər ki, "xəbərdarlıq edilən hər bir əməldən çəkinmək lazımdır".

**Dördüncü sübut:** Həqiqətən Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) belə demişdir: *"Kim libasını təkəbbürlüklə sürüyərsə, Qiyamət günü Allaha ona baxmaz"*.

Ummu Sələmə (Allah ondan razı olsun) *"Bəs qadınlar paltarlarının ətəyini necə etsinlər?"* - dedi.

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) *"Bir qarış uzatsınlar"* - dedi.

Ummu Sələmə (Allah ondan razı olsun) *"Bu vaxt onların qədəmləri (ayaqları) açılacaq"* - dedi.

Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) *"bir dirsəkdən artıq olmamaqla uzatsınlar"*[1] - dedi. Bu hədisdə qadının qədəmlərinin örtülməsinin vacib olmasına sübut var və bu Səhabə qadınlar arasında

1 "Sünən ət-Tirmizi" 1731-ci və "Sünən ən-Nəsəi" 5337-ci hədislər. Hədis səhihdir. Bax: "Səhih Sünən ət-Tirmizi", 1731-ci hədis.

məlum olan bir əməl idi. Şəkk yoxdur ki, qədəmlərin açıq olması üz və əllərin açıq olmasından daha yüngül bir fitnədir. Günah baxımından aşağı olan bir şeyin tənbeh olunması, özündən yuxarı (ağır) olan günaha da aiddir və hökm verilməyə yüngül əməldən daha layiqdir. Şəriətin hikmətindən deyil ki, fitnəsi az olan bir şeyi vacib etsin, fitnəsi daha da çox olan bir şeyin açılmasına isə rüxsət versin. Bu, Allahın hikmətinə və şəriətinə zidd olan mümkünsüz bir şeydir.

**Beşinci sübut:** Peyğəmbər (Allahın salavatı və salamı ona olsun) qadınlara xitab edərək belə demişdir: *"Sizdən birinizin köləsi olar və onun özünü azad edəcək miqdarda malı olarsa, onun yanında hicablansın (örtünsün)"*[1]. Bu hədisdən götürülən sübut odur ki, xanımın köləsi onun mülkü sayıldığı müddətcə onun yanında üzünü açması icazəlidir. Onun mülkiyyətindən çıxdıqda isə kölədən örtünmsi vacibdir, çünki kölə artıq o xanıma yad bir kişidir. Hədisin bu hissəsi qadının yad kişilərin yanında hicab geyinməsinin vacib olmasını göstərir.

**Altıncı sübut:** Aişə (Allah ondan razı olsun) belə deyir: *"Biz qadınlar ehram libasında Peyğəmbərlə (ona Allahın salavatı və salamı olsun) birlikdə üzlərimiz açıq ikən, ticarətçilər minik üzərində bizim yanımızdan keçərdilər. Onlar bizim yanımıza çatdıqda hər birimiz çarşabımızı*

1 "Sünən əbu Dəvud" 3928-ci "Sünən ət-Tirmizi" 1261-ci və "Sünən ibn Məcə" 2520-ci hədislər. Hədis zəifdir. Bax: "Daif əl-Cəmi əs-Sağir", 650-ci hədis.

*başımıza və üzümüzə salardıq, onlar bizim yanımızdan keçdikdən sonra üzlərimizi açardıq”*[1].

Aişənin (Allah ondan razı olsun) ***“onlar bizim yanımıza çatdıqda”*** sözü, yəni minik üzərində olan ticarətçilər yanlarından keçdikdə ***“Hər birimiz çarşabımızı başımıza və üzümüzə salardıq”*** deməsi - üzün örtülməsinin vacib olmasına sübutdur. Çünki qadın ehramda olduqda üzünü örtməsinə güclü bir maneə olmadıqda üzünü aça bilər. Əgər bu, güclü bir maneə olmasa idi, onlar yanlarından ticarətçilər keçərkən belə üzləri açıq olaraq da qalardılar. Lakin, Aişə (Allah ondan razı olsun) və digər Səhabə qadınlar minik üzərində olan ticarətçilərin yanında üzüaçıq qalmadılar. Buradan da bəlli olur ki, əksər alimlərə görə ehramda ikən qadının üzünü açması vacibdir və vacibə yalnız özü kimi vacib olan digər bir şey müxalif olur. Əgər yad kişilərin yanında hicab geyinmək və üzü örtmək vacib olmasa idi, ehramda ikən üzü açmaqla vacibi tərk etmək icazəli olmazdı. Buxari və Müslim “Səhih” hədis toplularında və digər hədis kitablarında ehramda olan qadının niqab və əlcək geyinməsi hədislərlə qadağan olunub.

Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) belə deyir: *“Bu, ehram libası geyinməyən qadınlarda niqab və əlcək geyinilməsinin məlum bir iş olduğunu göstərir. Bu isə qadınların üzlərini və əllərini örtməsinin vacib olmasını tələb edir”.*

Bu 6 sübut qadının yad kişilərin yanında hicab geyinməsinin və üzünü örtməsinin vacib olmasını göstərir. Qurani-Kərimdən olan dörd sübutu da bura əlavə etdikdə, Quran və Sünnədən on dəlil varid olduğunu görürük.

---

1 “Müsnəd Əhməd” 24021-ci və “Sünən əbu Dəvud” 1833-cü hədislər. Hədis zəifdir. Bax: “Daif əbu Davud”, 317-ci hədis.

## Üçüncü:

## QİYAS[1] EDİLƏN SÜBUTLAR

**On birinci sübut:** Sağlam düşüncə və davam edən (ardıcıl olan) qiyas göstərir ki, İslam şəriəti bu əmrlərlə nazil edilmişdir. Bu, məsləhələri (yəni faydaları) və onlara aparan vəsilələri qəbul etmək, buna həvəsləndirmək, fəsada yol açan səbəbləri inkar etmək və onlardan çəkindirməkdir. Məsləhəsi məfsədəsindən, yəni xeyri şərindən üstün olan hər bir şey ya vaciblik, yaxud da müstəhəblik daşıyan əmrdir. Məfsədəsi məsləhəsindən üstün olan hər bir şey ya haramlıq, yaxud da məkruhluq daşıyan qadağandır.

Qadının yad kişilərin yanında üzünü açması barədə dərindən düşünsək, bu əməldə nə qədər çox fəsadın olduğunu görərik. Üzün açılmasında hər hansı yüngül bir məsləhə təxmin edilsə belə, üz verəcək fəsadların yanında bu məsləhə suyun qərq olur. Bu fəsadların bir qismi aşağıdakılardır:

1. **<u>Fitnə:</u>** Həqiqətən qadın öz üzünü gözəlləşdirməklə, onu aşkar etməklə özünü fitnəyə salır və bununla yanaşı özünü fitnəyə səbəb olan biri kimi izhar edir. Bu isə şərin və fəsadın ən böyük səbəblərindəndir.

2. **<u>Qadının həyasının getməsi:</u>** O həya ki, insanın imanı və fitrəti məhz bunu tələb edir. Qadın isə həya mövzusunda xüsusilə misal çəkiləndir. “Pərdə arxasında olan, bakirə qadından daha həyalıdır” deyimini xatırlayaq! Qadının həyasının getməsi, onun imanının azalması və fitrətinə zidd çıxmasına görədir.

3. **<u>Kişilərin fitnəyə düşməsi:</u>** Şəkk yoxdur ki, üzünü açan bir çox qadınlar gözəl olar, yumşaq danışar, təbəssüm edər və zaraftalaşar. Necə

---

1 Qiyas - Bir şeyi başqa bir şeylə ölçmək, müqayisə etmək mənasına gəlir. Bu İslam termin olub mənası isə, haqqında ayə və hədislərdə hökmü olmayan bir məsələni, haqqında hökm olan bir məsələ ilə müqayisə edərək onun hökmünü digərinə də verməkdir.

də doğru deyiblər: “Əvvəl baxış, sonra salam, sonra söhbət, sonra təyinat və sonra da görüş”. Şeytan Adəm övladının qan damarlarında axır. Odur ki, hər bir danışıq, gülüş və sevinc kişinin qəlbinin qadına, qadının qəlbinin isə kişiyə bağlanmasına səbəb olur. Nəticədə isə dəf olunması mümkün olmayan bir şərə yol açılır. Allahdan salamatlıq diləyirik.

**4. <u>Qadınların kişilərlə qarışması:</u>** Qadın üzünü açmaqda və bayırda bu cür dolaşmaqda özünü kişi ilə eyni görərsə, onda kişilərə qarışaraq həyasından məhrum olar və bu əməlindən dolayı xəcalət çəkməz. Bu isə böyük fitnə və fəsaddır. Bir gün Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) məsciddən çıxarkən yolda qadınların kişilərlə qarışmasını görüb qadınlara belə deyir: “Yolun kənarına keçin, sizə yolun ortası ilə getmək icazəli deyil, sizə vacib olan yolun kənarı ilə getməkdir”[1]. Qadın yolda yeridikdə divara yaxın olar, hətta paltarı divara ilişərdi. Hədisi İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin təfsirində rəvayət edib:

﴿ وَقُل لِّلْمُؤْمِنَٰتِ يَغْضُضْنَ مِنْ أَبْصَٰرِهِنَّ ﴾

*“Mömin qadınlara da de ki, gözlərini aşağı diksinlər”[2].*

Şeyxul-İslam bn Teymiyyə (Allah ona rəhmət etsin) ən son nəşr edilmiş “Fətəva əl-Kubra” kitabında qadının yad kişilərin yanında hicab geyinməsinin vacib olmasını bildirərək belə demişdir: “Bu işin həqiqəti belədir ki, həqiqətən Allah iki zinət varid etmişdir, aşkar olan zinət və aşkar olmayan zinət. Qadına əri və məhrəmlərindən başqasının yanında aşkar olan zinətlərini açması icazəli idi (hicab ayəsi hazil olmadan öncə). Qadına üzünü və əllərini açması, həmçinin kişinin qadına baxması icazəli idi, çünki qadına bu zinətini açkar etməsi qadağan deyildi. O vaxt Allah hicab ayəsini endirdi:

﴿ يَٰٓأَيُّهَا ٱلنَّبِىُّ قُل لِّأَزْوَٰجِكَ وَبَنَاتِكَ وَنِسَآءِ ٱلْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَٰبِيبِهِنَّ ﴾

1 “Sünən əbu Dəvud” 5272-ci hədis. Hədis həsəndir. Bax: “Səhih Sünən əbu Dəvud”, 5275-ci hədis.
2 “ən-Nur”, 31.

*“Ey Peyğəmbər zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, çarşabları ilə örtünsünlər”*[1]. Qadınlar yad kişilərdən örtündülər”...!

Sonra isə belə deyir: “Çarşab - parçadan olan geniş örtükdür. Bunu İbn Məsud (Allah ondan razı olsun) və başqaları “rida” adlandırıblar, adi insanlar ona “izar” deyir - başından başlayaraq qadının bütün bədənini örtən böyük izardır". Sonra İbn Teymiyyə (Allah ona rəhmət etsin) belə deyir: *“Əgər qadınlar onların tanınmaması və əziyyət verilməməsi üçün üzlərini niqabla örtmələri ilə əmr olunublarsa, deməli əl və üz yad kişilərin yanında açılması icazəli olmayan zinətlərdir. Yad kişi sadəcə qadının zahirdə olan paltarını görməlidir*. İbn Məsud son əmri, İbn Abbas (Allah hər ikisindən razı olsun) isə ilk əmri xəbər verib. Bunun əksi isə odur ki, üz, əllər və qədəmlərin yad kişilərin yanında açılması icazəli deyil. Nəsxdən (ayənin hökmü qaldırılmadan) öncə irəli sürülən bu iki görüşdən ən doğru olanı budur. Qadına paltarından başqa bir şeyi aşkar etməsi icazəli deyil.

Qadına üzünü, əllərini və qədəmlərini yad kişilərin yanında açması icazəli deyil, lakin qadınların və məhrəmlərinin yanında bu icazəlidir.

Bunun əslini bilmək lazımdır. Həqiqətən şəriətin bunda iki məqsədi var: birinci, kişilər və qadınlar arsında fərqin bəlli olması. İkinci, qadınların hicab geyinməsi.

Bu, Şeyxul-İslam İbn Teymiyyənin sözləri idi. İmam Əhmədin məzhəbində olan fəqihlərin sözlərinə gəldikdə isə, son dövrlərdə yaşamış alimlərin sözlərini nəql edirəm. "Əl-Muntəhə" kitabında belə deyilir: *“Xayası olmayan, cinsiyyət üzvü kəsilən və gözü görməyən kimsənin belə yad qadına baxması haramdır”*. “Əl-İqna” kitabında isə belə deyilir: *“Xayası olmayan və cinsiyyət üzvü kəsilən kimsənin belə yad qadına baxması haramdır”*. Bu kitabın başqa bir yerində isə belə deyilir: *“Boşanmış yad qadına qəsdlə baxmaq icazəli deyil, onun saçına baxmaq belə haramdır”*. “Mətin əd-Dəlil” kitabında belə deyilir: *“Baxış səkkiz növdür, (bunlardan biri) Birinci: Həddi-büluğa çatmış kişinin həddi-büluğa çatmış yad və boşanmış qadına, onun hər hansısa bir yerinə baxması icazəli deyil, hətta qoyma saç taxsa belə"*.

1 “əl-Əhzab”, 59.

Şafii məzhəbində olan alimlər isə belə deyirlər: *"Heç bir ixtilaf yoxdur ki, baxışda şəhvət hissi və ya fitnəyə düşmək qorxusu olarsa, əlbəttə ki, haram olar.* Əgər baxışda şəhvət hissi və ya fitnəyə düşmək qorxusu olmazsa, bu zaman alimlərdən iki rəy varid olmuşdur". "Əl-İqna" kitabının şərhində Şafii məzhəbindən olan alimlərdən bu nəql edilir və müəllif belə deyir: *"Əl-Minhəc" kitabında qeyd edildiyi kimi, doğru olan haram olmasıdır".* İmam bu məsələni müsəlmanların ittifaqı ilə qadının üzünü açmasının qadağan olmasına yozur. Çünki baxmaq fitnəyə düşməyə və şəhvətin hərəkətə gəlməsinə səbəbdir. Uca Allah belə buyurur:

﴿ قُل لِّلْمُؤْمِنِينَ يَغُضُّوا۟ مِنْ أَبْصَٰرِهِمْ وَيَحْفَظُوا۟ فُرُوجَهُمْ ﴾

*"Mömin kişilərə de ki, gözlərini aşağı diksinlər"*[1].

"Şəriətin gözəlliyindən; mömin kişilərə yad qadına baxmağı qadağan etdi və detalları araşdıran qapını bağladı, (yəni kişi qadına şəhvətlə baxmasa günah olar yaxud olmazmı, və ya da qadına baxdıq da fitnəyə düşmək qorxusu olmazsa günah olarmı ya yox, şəriət bu cür detallar barədə danışmadan bütünlüklə bu qapını bağladı) - bunu İmam əş-Şövkəni "Neylu əl-Əvtar şərh əl-Muntəqa" kitabında demişdir. Müəllif xüsusilə fasiqlərin çox olduğu yerlərdə qadınların üzlərini açaraq bayıra çıxmalarının qadağan olması barədə müsəlmanların ittifaq etdiyini də kitabda qeyd edir.

1 "ən-Nur", 30.

# Dördüncü:

# ÜZÜN AÇILMASINI İCAZƏLİ GÖRƏN ALİMLƏRİN DƏLİLLƏRİ

Mən aşağıda qeyd etdiyimdən istisna olmaqla yad qadına üzünü və əllərini açmasını izn verənin Quran və Sünnədən hər hansı bir dəlilini bilmirəm:

**Birinci:** Uca Allah belə buyurur:

﴿ وَلَا يُبْدِينَ زِينَتَهُنَّ إِلَّا مَا ظَهَرَ مِنْهَا ﴾

*"Qoy onlar görünənlər istisna olmaqla, zinətlərini göstərməsinlər"*[1]. Necə ki, əl-Aməş, Səid bin Cubeyrin və o da İbn Abbasın bu ayə barədə belə dediyini rəvayət edir: *"Bu (istisna olan zinətlər) qadının üzü, əlləri və üzüyüdür"*. Az öncə dediyimiz kimi, Səhabənin təfsiri sübut və dəlildir.

**İkinci:** Əbu Dəvud (Allah ona rəhmət etsin) özünün "Sünnə" kitabında Aişənin (Allah ondan razı olsun) belə dediyini rəvayət edir: *"Bir gün Əsma bint əbu Bəkr Allahın Elçisinin (ona Allahın salavatı və salamı olsun) yanına şəffaf paltarla gəlir.*

O, (ona Allahın salavatı və salamı olsun) ondan üz döndərərək belə deyir: *"Ey Əsma! Qadın həddi-büluğa (heyz yaşına) çatarsa, bu və bundan başqa bədənindən bir yerin görünməsi ona icazəli deyil" deyərək üzünə və əllərinə işarə etdi"*[2].

**Üçüncü:** İmam Buxari və digərləri (Allah onlara rəhmət etsin) İbn Abbasdan (Allah ondan razı olsun) belə rəvayət edirlər: *"İbn Abbasın*

1 "ən-Nur", 31.

2 "Sünən əbu Dəvud" 4104-cü hədis. Hədis səhihdir. Bax: "Səhih Sünən əbu Dəvud", 569-cu hədis.

*qardaşı əl-Fadl vida Həccində Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) arxasında idi. Xasəm qəbiləsindən bir qadın gəlir və əl-Fadl qadına və qadın da ona uzun bir baxışla baxır. Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) əl-Fadlın üzünü çevirir"*[1]. Bu, qadının üzünün açıq olduğunu göstərir.

**Dördüncü:** İmam Buxari və digərləri (Allah onlara rəhmət etsin) Cabir bin Abdullahın (Allah ondan və atasından razı olsun) Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) insanlarla birgə bayram namazını qılıb sonra onlara moizə edib xatırlatma etməsini və sonra isə qadınların yanına gələrək onlara moizə və öyüd-nəsihət edərkən belə dediyini rəvayət edirlər:

*"Ey qadınlar toplumu! Sədəqə verin, sizlər Cəhənnəmdə ən çox yanacaq kimsələrsiz". Qadınların arasından yanaqları qaralmış bir qadın önə çıxdı..."*[2] - qadının üzü açıq olmasa idi, onun yanaqlarının qaraldığı bilinməzdi.

Bildiyim qədərilə qadının yad kişinin yanında üzünü açmasını icazəli görənlərin dəlilləri bunlardan ibarətdir.

1 "Səhih əl-Buxari" 1513-cü və "Səhih Müslim" 1334-cü hədislər.
2 "Səhih Müslim" 885-ci və "Sünən ən-Nəsəi" 1575-ci hədislər. Hədis səhihdir. Bax: "Silsilə əs-Səhihə", 3153-cü hədis.

## Beşinci:

# ÜZÜ AÇMAĞI İCAZƏLİ GÖRƏNLƏRİN DƏLİLLƏRİNƏ RƏDDİYYƏ

Lakin, bu dəlillər (üzün açılmasını icazəli görənlərin sübutları) bizim az öncə üzün örtülməsinin vacib olmasına dair qeyd etdiyimiz sübutlara zidd deyil. Bu, iki şeyə görədir:

**Birinci:** Qadının üzünün örtülməsini vacib görənlərin sübutları "şəriətin əsli" dəlillərindən nəql olunur, qadının üzünün açılmasını icazəli görənlərin sübutları isə bu "əslin" üzərində durur. (Üsulçulara) Üsul alimlərinə görə də "əsldən" (yəni şəriətin əslindən) götürərək nəql edən kimsə daima üstün olur. Çünki "əsl" hər şeyi olduğu kimi yerində qoyur. Əgər "əsldən" nəql olunan dəlil mövcud olarsa, bu, dəlil hökmün "əsldən" yaranmasına və dəyişilməsinə dəlalət edər. "İsbat edən və ya isbat edilən dəlil daima, inkar ediləndən öndədir". Bu cür icmal etmək sübutların sabit və dəlalət etməsinə görə, bütün dəlillər üzərində beləcə qurulmuşdur.

**İkinci:** Üzün açılmasını icazəli görənlərin sübutları barədə düşünsək görərik ki, bu dəlillər "qadağandır" deyənlərin sübutlarını üstələmək üçün kifayət deyil. Üzün açılmasını icazəli görənlərin sübutlarının hər birinə aşağıda verilən cavablarla bu məsələ aydın olacaq:

**1.** İbn Abbasın (Allah ondan və atasından razı olsun) təfsirinə üç cəhətdən nəzər yetirək:

**Birinci:** İbn Abbasın (Allah ondan və atasından razı olsun) rəvayətinin hicab ayəsi enmədən öncə varid olması ehtimalı olunur. Necə ki, az öncə Şeyxul-İslamdan (Allah ona rəhmət etsin) bunu nəql etdik.

**İkinci:** İbn Abbasın (Allah ondan və atasından razı olsun) rəvayətində aşkara çıxarılması icazəli olmayan zinətin zikr edilməsi ehtimalı var. Necə ki, bunu ibn Kəsir (Allah ona rəhmət etsin) öz təfsirində qeyd

etmişdir. Bu iki ehtimalı İbn Abbasın (Allah ondan və atasından razı olsun) Uca Allahın bu ayəsinə olan açıqlaması gücləndirir:

﴿ يَٰٓأَيُّهَا ٱلنَّبِيُّ قُل لِّأَزۡوَٰجِكَ وَبَنَاتِكَ وَنِسَآءِ ٱلۡمُؤۡمِنِينَ يُدۡنِينَ عَلَيۡهِنَّ مِن جَلَٰبِيبِهِنَّۚ ﴾

*"Ey Peyğəmbər, zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, çarşabları ilə örtünsünlər"*[1].

Bunu isə Qurani-Kərimdən gətirilən üçüncü dəlildə artıq zikr etdik.

**Üçüncü:** Hətta İbn Abbasın (Allah ondan və atasından razı olsun) rəvayətində bu iki ehtimaldan heç birinin olmadığı ilə razılaşsaq belə, şübhəsiz ki, İbn Abbasın açıqlamasının qəbul edilməsi vacib olan bir sübut deyil. Belə olsa idi, bu zaman digər Səhabələrin sözü ibn Abbasın (Allah ondan və atasından razı olsun) sözünə zidd olmazdı. Başqa Səhabənin sözünün ibn Abbasın (Allah ondan və atasından razı olsun) sözünə zidd olması ona dəlalət edir ki, digər sübutlardan hansı rəy üstün görülərsə, ona əməl edilməlidir. İbn Abbasın açıqlamasına, İbn Məsudun (Allah onlardan razı olsun) açıqlaması zidd olub. İbn Məsud (Allah ondan razı olsun),

﴿ إِلَّا مَا ظَهَرَ مِنۡهَاۖ ﴾

*"görünənlər istisna olmaqla"* ayəsini belə açıqlamışdır: "Cübbə və paltar da həmçinin aşkara çıxması labüd olan zinətlərdir". İki Səhabənin açıqlamasından üstün olanı tərcih etmək və buna əməl etmək vacibdir.

**2.** Aişədən (Allah ondan razı olsun) rəvayət olunan hədis iki səbəbə görə zəifdir:

**Birinci:** Hədisin isnadında Aişə (Allah ondan razı olsun) ilə bu hədisi ondan rəvayət edən Xalid bin Dureyk arasında qopuq var. Necə ki, bunu Əbu Dəvudun (Allah ona rəhmət etsin) özü də demişdir: "Xalid bin

1 "əl-Əhzəb", 59.

Dureyk Aişədən hədis eşitməyib". Həmçinin Əbu Hətim ər-Razi də (Allah ona rəhmət etsin) bunu bildirmişdir.

**İkinci:** Bu hədisin isnadında Bağdadda yaşamış Səid bin Bəşir ən-Nasriy var. Abdurrahman bin Məhdiy onun hədislərini tərk etmiş, İmam Əhməd, İbn Məin, Əli bin Əl-Mədini və ən-Nəsəi (Allah onlara rəhmət etsin) onun hədis elmində yaddaşı zəif bir rəvayətçi olduğunu demişlər. Buna görə də bu hədis zəifdir və üzün örtülməsinin vacibliyinə dəlalət edən hədislərin yanında bu hədisin heç bir qüvvəsi yoxdur. Həmçinin Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) hicrəti zamanı Əsma bint Əbu Bəkrin 27-i yaşı var idi. Yəni yaşı çox idi. Odur ki, onun Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) yanına şəffaf, üz və əllərini aşkar edən bir libasda daxil olması həqiqətdən çox uzaqdır. Allah daha yaxşı bilir. Bundan əlavə, hətta rəvayətin səhih olduğunu desək belə, bu, hicab əmri gəlmədən öncəyə nisbət olunur. Çünki öncə də bəhs etdiyimiz kimi, hicab barədə olan ayə və hədislər "əsldən" nəql ediləndir.

**3.** İbn Abbasın (Allah ondan və atasından razı olsun) hədisində yad qadına baxmağın icazəli olmasına heç bir dəlil yoxdur. Çünki Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) əl-Fadlın etdiyi əməli görüb susmadı, əksinə onun üzünü başqa tərəfə çevirdi. İmam ən-Nəvəvi (Allah ona rəhmət etsin) "Səhih Müslim" kitabının şərhində yad qadına baxmağın haram olmasının bu hədisdə olan faydalardan biri olduğunu qeyd etmişdir. Həmçinin Hafiz bin Həcər (Allah ona rəhmət etsin) "Fəth əl-Bəri" kitabında bu hədisdən çıxarılan faydaları qeyd edərək belə deyir: "Hədisdə yad qadınlara baxmağın qadağan olması və gözlərin aşağı dikilməsi əmri var". İyad (Allah ona rəhmət etsin) belə demişdir: "Bəziləri hicabın yalnız fitnəyə düşmək qorxusu olduğu zaman vacib olmasını iddia edir, amma mənə görə isə, hədisdə varid olduğu kimi (bu icazəli deyil, hətta fitnəyə düşmək qorxusu olmasa belə) Peyğəmbər Fadlın üzünü çevirdiyi kimi. hicabın yalnız fitnəyə düşmək qorxusu olduğu zaman vacib olmasını iddia edirlər. Əgər soruşulsa ki, "nə üçün Allahın Elçisi (ona Allahın salavatı və salamı olsun) qadına üzünü örtməyi əmr etmədi?"

Buna cavabımız: Bizə bəlli olan, həmin qadının ehramda olmasıdır və yad kişilərin görmədiyi müddət boyunca ehramda olan qadının üzünü

örtməsi vacib deyil. Və yaxud da deyilir ki, Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) bu hadisədən sonra həmin qadına üzünü örtməsini əmr edib". Peyğəmbərin (ona Allahın salavatı və salamı ona olsun) qadına üzünü örtməsini əmr etməsinin nəql olunmaması əmr etməməsinə dəlalət etmir. Çünki nəqlin olmaması, bunun baş verməməsi üçün dəlil sayılmır. İmam Müslim və Əbu Dəvud (Allah onlara rəhmət etsin) Cabir bin Abdullah əl-Bəcəlinin (Allah ondan və atasından razı olsun) belə dediyini rəvayət edirlər: "İstəmədən olan baxış barədə Allahın Elçisindən soruşdum.

O, (ona Allahın salavatı və salamı olsun) *"gözünü çək"* və ya *"mənə gözümü çəkməyi əmr etdi"* - dedi[1].

**4.** Cabirin (Allah ondan razı olsun) hədisində isə hadisənin nə vaxt baş verdiyi bildirilməyib. Yaxud ola bilsin ki, bu qadın ərə getməkdən ümidini üzmüş yaşlı qadın olub. Bu halda o qadına üzünü açması icazəldir. Bu cür yaşlı qadından başqasına isə hicab vacib olaraq qalır. Yaxud da ola bilsin ki, bu hadisə hicab ayəsi nazil edilmədən öncə baş verib. Çünki bu ayə "əl-Əhzab" surəsindədir. Bu surə isə Hicrətin 5-ci və ya 6-cı ilində enmişdir. Bayram namazı isə hicrətin ikinci ilində əmr edilib.

Bilin ki, bu məsələ barədə geniş danışmağımız, insanların bu mühüm və bütün cəmiyyəti əhatə edən məsələ haqqında hökmü bilmələri üçündür. Bu məsələ ilə qadınların üzlərini açmasını istəyənlər var. Bu insanlar bu məsələ barədə araşdırma aparıb onun haqqını ödəməyiblər. Bununla belə hər bir məsələdə araşdırma aparan hər kəsə ədalətli və insaflı olmağa çalışması və öyrənməmişdən öncə danışmaması vacibdir. Bir-birinə müxalif olan rəylərin sübutlarına iki mübahisə edənin arasında hökm verən bir kimsə kimi ədalətlə baxmalı və elmlə hökm verməlidir. Açıq-aşkar üstün görəcəyi bir sübut olmadan heç bir tərəfi digərindən üstün görməməlidir. Bütün sübutlara hərtərəfli baxmalı, hər hansı bir rəyə etiqad etməsi onu öz sübutlarını qorumaqda həddi aşmağa, əks tərəfin sübutlarını alçaltmağa və saymamazlıq etməyə gətirib çıxarmamalıdır. Buna görə də alimlər belə deyiblər: "Vacib olan, etiqad etmədən öncə

1 "Müsnəd Əhməd" 19160-19197-ci və "Sünən ət-Tirmizi" 2776-cı hədislər. Hədis səhihdir. Bax: "Səhih Sünən əbu Davud", 2148-ci hədis.

sübut götürməkdir ki, sübutun etiqadına yox, etiqadın sübuta tabe olsun. Çünki kim sübut götürmədən öncə etiqad edərsə, etiqadı onu özünə müxalif olan sübutları rədd etməsinə və ya rədd etmək mümkün olmasa belə, başqa cür yozmasına gətirib çıxara bilər. Artıq biz və bizdən başqaları sübutu (dəlili) etiqadın ardınca etməyin nə qədər zərərli olduğunun şahidi olmuşuq. Bəzən bu fikir insanı zəif hədisi səhih görməyə və ya öz sözünü və sübutlarını gücləndirmək üçün ayə və səhih hədisi dəlalət etmədiyi yerə yozmasına gətirib çıxarır. Üzün örtülməsinin vacib olmadığı rəyinə əsaslanan bir məqalə oxudum. Orada Əbu Dəvudun Aişədən (Allah ondan razı olsun) rəvayət etdiyi Əsma bint Əbu Bəkrin Peyğəmbərin (ona Allahın salavatı və salamı olsun) yanına daxil olma hadisəsi qeyd edilmişdi. Həmin hədisdə Peyğəmbər (ona Allahın salavatı və salamı olsun) “Qadın həddi-büluğa (heyz yaşına) çatarsa, bu və bundan başqa bədənindən bir yerin görsənməsi ona icazəli deyil” deyərək üzünə və əllərinə işarə edir. Bu kitabda alimlərin hədisin səhihliyində ittifaq etdiyi bildirilir. Hədisi rəvayət edən Əbu Dəvudun özü hədisin zəiflik səbəbinin isnadında qopuq olmasını, İmam Əhməd və digər hədis imamlarının hədisin rəvayətçilərindən birinin yaddaşı zəif bir rəvayətçi olduğunu dediyi halda, necə ola bilər ki, alimlər hədisin səhih olmasında ittifaq etsinlər?! Lakin, təəssübkeşlik və cahillik insanı müsibətə və həlaka düçar edir. İbn əl-Qayyum (Allah ona rəhmət etsin) belə demişdir:

***İki libas geyinənə edilər ar‹***

***Rəzillik, zəlilliklə və alçaqlıqla atılar.***

***Mürəkkəb cahillik, üzərində libasdır‹***

***Təəssübkeşlik libası, necə də pis libasdır.***

***İnsaflıqla bəzənən, fəxrli zinət geyər‹***

***Çiyinlər və kənarlar məhz bununla bəzənər.***

Müəllifə yaraşan isə odur ki, sübutları axtararkən təqsirlikdən, sübutların daha doğru olanını digərindən ayırd etməkdə və elmsiz danışmaqda tələskənlik etməkdən çəkinsin. Yoxsa Uca Allahın bu ayədə zikr etdiyi kimsələrdən olar:

﴿ فَمَنْ أَظْلَمُ مِمَّنِ ٱفْتَرَىٰ عَلَى ٱللَّهِ كَذِبًا لِّيُضِلَّ ٱلنَّاسَ بِغَيْرِ عِلْمٍ ۗ إِنَّ ٱللَّهَ لَا يَهْدِى ٱلْقَوْمَ ٱلظَّٰلِمِينَ ﴾

*“Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər? Şübhəsiz ki, Allah zalım qövmü doğru yola yönəltməz”*[1].

Və yaxud da sübutları axtarmaqda təqsirlik etməklə yanaşı, doğru dəlil olan məsələni də yalan çıxara bilər. Bu isə şər üzərinə şərdir və Uca Allahın bu ayəsi həmin kimsənin üzərinə şamil oluna bilər:

﴿ فَمَنْ أَظْلَمُ مِمَّن كَذَبَ عَلَى ٱللَّهِ وَكَذَّبَ بِٱلصِّدْقِ إِذْ جَآءَهُۥٓ ۚ أَلَيْسَ فِى جَهَنَّمَ مَثْوًى لِّلْكَٰفِرِينَ ﴾

*“Allaha qarşı yalan uyduran və həqiqət ona bəyan edildikdə onu yalan sayan kimsədən daha zalım kim ola bilər? Məgər Cəhənnəmdə kafirlər üçün yer yoxdur”?*[2].

Allahdan istəyirəm ki, haqqı bizə haqq olaraq göstərib bizi ona tabe olmağa, batili isə batil olaraq göstərib bizi ondan uzaq durmağa müvəffəq etsin. Bizi Özünün doğru yoluna yönəltsin. Həqiqətən Allah Səxavətli və Kərimdir. Peyğəmbərimiz Muhammədə, onun ailəsinə, bütün əshabına və onun ardınca gedən hər bir kimsəyə Allahın salavatı və salamı olsun.

1 “əl-Ənam”, 144.
2 “əz-Zumər”, 32.

# Mündəricat

Ön söz ........................................................................................3

Qurani-Kərimdən sübutlar..................................................................5

Sünnədən sübutlar..........................................................................12

Qiyas edilən sübutlar......................................................................18

Üzün açılmasını icazəli görən alimlərin dəlilləri ................................22

Üzü açmağı icazəli görənlərin dəlillərinə rəddiyyə ............................ 24